

Əzizə Cəfərzadə

# Axır ki, Aşıq Sənəmlə görüşdüm...

*rəhmətlik qələm ustası folklorumuzun mahir bilicisiydi...*



...Axır ki, balakənli haylaçı, el sənətkarı ilə görüşmək mənə qismət oldu.

Balakəndə başımıza yığılan yaşlı qonşular bir səslə dilləndi:

- Yox, əvvəlki Sənəm deyil, ola da bilməz.

Televiziyanın cavan rejissoru Adil tez-tez bulud olan göyə baxır. Gün gedir. Bu gün çəkə bilməsək!... Soruşuruq:

- Sənəm nə vaxt qayıdar?

- Onu bir Sənəm bilir. Bəlkə axşamçağı, bəlkə bir saat sonra. Haçan könlü doysa.

- İşimiz bitdi - bu, Adilin səsidir.

Cavanlar gülüşür. - " narahat olmayın, bu saat meşələri ələk - vələk eləyib Sənəm nənəmizi sizin üçün taparıq.

...Məni vaxtilə şəkildə gördüyüm o tanımadığım musiqi aləti maraqlandırır:

- Budur, - qadın evdən şəklini gördüyüm musiqi alətini gətirdi. - Nəki Gülüzəndə, Balakəndə, Qaxda, Zaqatalada bu alət olmayan ev yoxdu.

Adını deməyə macal tapmadı. Sənəm nənənin dalınca gedən dostlar qayıtdı:

- Tapdıq, amma maşınla gəlmək istəmədi. Atım sazdı, öz arabamdaca gəlləm - dedi. ...

...Əllərini yumadan, özünü səliqəyə salmadan, bizimlə görüşmək, lentə çəkilmək istəmədi. Qəribə hikmət idi: gətirdiyi kötüklər kimi çox qocalmış Sənəm elə ellərin Sənəmi təki, səliqə-sahman sevən əsil qadın idi. Əl-üzünü yuyub gəldi. Hələ də adını bilmədiyim musiqi alətini aldı, nəvazişlə, həssas barmaqlarını ikicə simdə gəzdirdi, oturdu, dizləri üstünə qoydu, köklədi.

- Səsimdə səslik qalmayıb, - deyə oxudu:

Sənəm eli çağırır,
Siyah teli çağırır,
Sinəm üstə əzrayıl,
Dilim yarı çağırır...

Sənin adın tambur imiş, illər, aylar axtardığım musiqi aləti! Səni adi söyüd və cökədən hazırlayırlar. İndiki sənətkarlar üzərinə sədəf də düzür. Sənəm nənənin əlindəki sadədir, ikicə simi var. Cəmaləddin Səfərov kimi ustalar sənə hansı hikmətlə can verib ki, Sənəm nənə belə ahənglə çalır səni! Xalq arasında, folklorumuzda qədim və çox yayılmış bayatılara bənzəyən "sözləri" el arasında " hayla" adlandırırlar. Məhəbbətimi, sevgilimi haylayır bu " haylalar"!

- Neçə yaşın var, Sənəm nənə?

Dedi:

- 140.

Amma burada da Sənəm nənə deyəsən qərinəni əsrlə qarışıq saldı. İndi onun yaşı gərək ki, 97 ilə 105 arasındaydı.

- 26 il at belində tütün tarlalarının gözətin çəkmişəm. Meşələrdə mən bilən heç mən yaşda ağac da yoxdur.

- "Çay daşı - çaylaq daşı" havasını çal, cavanlar eşitsin - bunu da Sənəm nənənin qonşusu Kərimə deyir. Qocaman sənətkar çalır, ikicə simdə böyük bir aləm səslənir, qədim, unudulmaqda olan bir aləm:

Ay qız, çıxma çəkilə,
İpək köynək sökülə,
Baxmaqnan gözmü doyar,
Səndə olan şəkilə?

Keçirəm Kür üstündən
Min atı sür üstündən,
Mən ölürəm qəbirsiz,
Ağlama, dur üstümdən.

- Səsim xarab olub, bala oxuya bilmirəm:

Samovar duran yerdə,
Vurğunu vuran yerdə,
Ət gedir, sümük qalır,
Qocalıq gələn yerdə.

Qocalıqdan şikayətlənir, amma çalır da, oxuyur da, təzə-təzə sözlər qoşur da... **("Azərbaycanın aşıq və şair qadınları" kitabından...)**